# O, UCA BİR ZİRVƏ İDİ

**Ayna Asim qızı Əhmədli**
***BDU-nun Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə I kurs, 132-ci qrup tələbəsi***

O, bir zirvə idi - özü də uca, əlçatmaz bir zirvə. Onu anlatmaq üçün sözlər, ifadələr yetməz. O, ulu bir çinar idi, kölgəsi insanı rahatlamağa yetərdi. Biləndə ki, arxandadır, güvənirdin özünə. Bilirdin ki, bir dağdır, arxanda dayanıb. Böyük ürəyi vardı Onun, bütün dünyanı ürəyində yerləşdirirdi. Həyatını, hər şeyini qurub-yaratmaq uğrunda fəda edirdi. Dünya siyasətçiləri ucsuz-bucaqsız sərhədlər xəyala edərkən, dünyanı fəth etməyi arzularkən könüllər fəth edirdi O. Xalqı uğrunda ömrünü fəda etdi O. Bu uğurda savaşdı, mübarizə apardı, ölməzliyə, ədəbiyaşarlığa qovuşdu.

Üzündə nur, amma gözlərində ciddi, dərin mənalı baxışları vardı Onun. Şəkillərinə baxanda belə insan onun üzündəki ciddiyyətdən həyəcanlanır. Bir sirli aləmdir, yeddi cahanı içində gizlədir. Bir addımı bir çağ başlatdı. Onun addımı ilə bir dövr bitdi, yeni bir dövr başladı.

O, bir yaz səhəri insanın ruhunu isidən bir rüzgardı. İnsanı başqa bir aləmə aparardı. O, xəyalların səhərini aydınladan günəş işığı kimiydi. O təkcə xəyallarımızın sabahını deyil, həyatımızın səhifələrini işıqlandırırdı. Bizə parlaq bir gələcək hazırladı. Gözləri üzündə bir cüt ulduzdu sanki. Qaranlıq gecədə yol göstərirdi bu millətə. Dan ulduzu idi gözləri üzərimizdə.

Qarşılıq gözləmirdi, mənfəəti yox idi, xalqını, vətənini təmənnasız sevirdi. Sevgisi saf idi, məsum idi. Bir uşaq sevgisi yaşadırdı könlündə. Dünya onun saf sevgisi qarşısında aciz qalırdı. Bir sözü bir tarixi dəyişdi. Bir sözü bu dünyanı, bu millətin taleyini dəyişdi. Bu vətənə atalıq edirdi. Bu vətənə anam deyirdi, anasına övladlıq edirdi.

Kimdir O? Bu dünyada onun bənzəri, tayı-bərabəri yox idi. O, bir Türk oğlu idi. Atalarından miras qalan adına sahib çıxırdı. Damarlarında dolaşan qanın Türk qanı olduğunu sübut edirdi. O bu xalqın Öndəri idi, Atası idi. O bu xalqın Günəşi idi. O, Heydər Əliyev idi.